6 noyabr / 2021

Ədəbiyyat qəzeti

# İsmayıl Məmmədli - 75



Hörmətli İsmayıl müəllim, sizi müasir Azərbaycan filoloji fikrinin görkəmli tədqiqatçısını, tanınmış lüğətçi alimi, ağsaqqal dilçimizi 75 illiyiniz münasibətilə ürəkdən təbrik edirik.

Siz 1967-ci ildə Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyasında ədəbi və elmi nəzarət redaksiyasında redaktor (az sonra böyük elmi redaktor) vəzifəsində əmək fəaliyyətinə başlamısınız. 1970-1973-cü illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun əyani aspiranturasında təhsil almış, və aspirantlıqdan şöbə müdirliyinə qədər yüksəlmisiniz. Bu günədək 250-dən çox elmi əsərin, o cümlədən, 25-dən artıq monoqrafiya, lüğət kitabları, dərslik və dərs vəsaitləri, danışıq kitabı, publisistik məqalələrin müəllifi kimi tanınırsınız.

Sizin dəyərli əsərləriniz Azərbaycan dili tarixi, üslubiyyat, leksikoqrafiya, etnolinqvistika kimi sahələrdə bir sıra problemlərinin həllində müəyyən boşluqları doldurmağa xidmət göstərmiş və dilçiliyimizdə etnolinqvistika sahəsində məktəb yaratmısınız. Siz 1980-1989-cu illərdə Azərbaycan Dövlət Qapalı Teleradio Şirkətində "Azərbaycan dili" və "Dil xalqın mənəvi sərvətidir" (dünya azərbaycanlıları üçün) verilişləri vasitəsilə dilimizin təbliğində dəyərli xidmətlər göstərmisiniz.

Siz Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 2002-ci ildən baş məsləhətçi kimi çalışırsınız. AMEA Dilçilik İnstitutunda şöbə müdiri, müdafiə və elmi şuraların üzvüsünüz. Həmçinin, 30 ilə yaxındır Azərbaycan yazıçılar və jurnalistlər birliyinin üzvüsünüz.

Siz Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Dil Komissiyasının, Azərbaycan Yazıçılar, Jurnalistlər və Aşıqlar Birliklərinin üzvüsünüz. Azərbaycan Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə (2013) təltif olunmusunuz. Həsən bəy Zərdabi mükafatı və diplomunun, Səməd Vurğun mükafatının sahibisiniz.

Hörmətli İsmayıl Orucoğlu, sizi bir daha yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, cansağlığı, uzun ömür, uğurlar arzulayırıq.

Azərbaycan Yazıçılar Birliyi